# Yeni minilliklərə böyük addımlarla irəliləyən müstəqil Azərbaycan

**Müstəqilliyini bərpa etdikdən sonra böyük çətinliklərlə üzləşən, dövlətçiliyini itirmək təhlükəsi ilə sınağa çəkilən xalqımız olduqca mürəkkəb, ziddiyyətli dönəmdən keçdi. Hakimiyyət uğrunda mübarizə aparan, respublikanın təbii sərvətlərinə sahiblənmək istəyən, öz şəxsi maraqlarını, ambisiyalarını, vəzifə hərisliyini hər şeydən üstün tutan, xaricdən idarə olunan qüvvələr aldıqları təlimatlara əsasən ölkə daxilində qarşıdurmalar, parçalanma, qardaş qırğını törətmək məqsədilə çirkin əməllərə əl atırdılar. Ölkədə hökm sürən hərc-mərclik, özbaşınalıq düşmən qüvvələrin əl-qol açmasına şərait yaratmış, ərazilərimizin 20 faizdən çox hissəsi Ermənistan tərəfindən işğal edilmişdir. Çıxılmaz vəziyyətdə olan, nicat yolunu yalnız ulu öndər Heydər Əliyevdə görən xalq onu təkidlə ikinci dəfə hakimiyyətə gətirməklə taleyini dahi şəxsiyyətə həvalə etdi.**

Ötən əsrin sonlarında hakimiyyətə qayıdan ümummilli lider ölkədə sabitliyi, əmin-amanlığı bərqərar etmək üçün mühüm tədbirlər gördü, ayrı-ayrı şəxslərə xidmət edən silahlı birləşmələr milli ordu olaraq formalaşdırıldı, sütünları sarsılan dövlətçiliyimizin əsasları möhkəmləndirildi. Bütün sahələr üzrə həyata keçirilən islahatlar qısa müddətdə öz nəticəsini verdi. Ərazilərimizin işğalı dayandırıldı, atəşkəsə nail olundu. Respublikamızın zəngin təbii ehtiyatlarından xalqın mənafeyinə uyğun şəkildə istifadə etmək üçün mühüm təşəbbüslər irəli sürüldü və icrası istiqamətində böyük addımlar atıldı. Ulu öndərin şəxsi nüfuzu, düşünülmüş qərarları ölkə iqtisadiyyatına böyük həcmdə yatırımlar edilməsinə rəvac verdi. Qısa zaman kəsiyində bütün təhlükələr sovuşdu, iqtisadiyyat dirçəldi, ordu quruculuğu prosesinə başlanıldı. Müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrildi, Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankının üzvlüyünə qəbul olundu. Beynəlxalq təşkilatlar, nüfuzlu qurumlarla qarşılıqlı faydalı əlaqələr yarandı.

Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə ölkəmizin həyatında böyük uğurlara imza atıldı. Əsrlərin və minilliklərin qovuşduğu 2000-ci ildə xalqa müraciətində Azərbaycanın istiqlalını bərpa etdikdən sonra keçdiyi çətin, kəşməkeşli yola bir daha nəzər salan müdrik lider demişdir: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir".

Ulu öndər ötən əsrdə neft mərkəzlərindən birinə çevrilən ölkəmizin "qara qızıl"ının dünya iqtisadiyyatında, beynəlxalq siyasətdə, elmin, texnikanın, sənaye istehsalının inkişafında rolunu, elmi-texniki tərəqqinin təməlində məhz neft amilinin dayandığını, ardıcıl olaraq həyata keçirilən neft strategiyasının respublikamıza böyük həcmdə dividendlər gətirdiyini, ölkəmizin həm regionda, həm də beynəlxalq aləmdə təsir gücünün getdikcə artdığını vurğulamışdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycanın dinamik inkişaf yolunun müəyyənləşdirilməsinin, uğurlu neft strategiyasının hazırlanıb həyata keçirilməsinin gələcək nəsillər üçün böyük tarixi əhəmiyyət kəsb etdiyini demişdir.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma "Dağlıq Qarabağ" probleminin respublikamızın ərazi bütövlüyünə, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş cəhd olduğunu, sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Qarabağın Azərbaycanın tərkibindən çıxarılması istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyini bildirmişdi. 1988-ci ildə SSRİ rəhbərliyi tərəfindən qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" qərarla Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılmasının təməli qoyulmuş, SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında fərmanı ilə Qarabağ problemi Qarabağ faciəsinə çevrilmişdir. Qarabağın işğalında əsas faktorun ermənilərin ölkəmizə qarşı ərazi iddiaları olsa da, respublikada siyasi hakimiyyətsizliyin, dövlət idarəçiliyində rəhbər vəzifələri tutmuş şəxslərin səriştəsizliyinin mühüm amil olduğunu vurğulamışdır. Müdrik siyasətçi dövlət idarəçiliyində səriştəsi olmayan ovaxtkı rəhbərlərin ermənipərəst qüvvələrin böyük məharətlə hazırladıqları hiyləgər planların iştirakçısına çevrilmələri nəticəsində Qarabağ və ətraf rayonların Ermənistanın işğalı altına keçdiyini təəssüflə qeyd etmişdir.

Özlərini siyasətçi hesab edən həmin şəxslər xalqın taleyüklü məsələsinə laqeydlik göstərməklə sözün əsl mənasında cinayət etdilər. 1990-cı ildə törədilən 20 Yanvar faciəsi də məhz bu laqeydliyin, satqınlığın nəticəsi idi. Hakimiyyət uğrunda mübarizəyə başı qarışmış "rəhbərlərin" hadisələrə etinasızlığı 1989-cu ilin son günlərində Ermənistan Ali Sovetinin Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul etməsi, 1990-cı il yanvarın 15-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında" fərman imzalaması ilə nəticələndi. Artıq səbir kasası daşan, öz istiqlaliyyəti, ərazi bütövlüyü uğrunda ayağa qalxan xalqın azadlıq səsini yerindəcə boğmaq üçün erməni lobbisinə xidmət edən mərkəzi hakimiyyətin anti-Azərbaycan mexanizmi işə düşdü. Xalqımızın tarixində qara səhifə olan, totalitar rejimin amansızlıqla həyata keçirdiyi qanlı 20 Yanvar faciəsi törədildi. Mərkəzi hakimiyyətin əlaltıları dinc əhaliyə qarşı bu vəhşliyi, heç bir hüquq normasına sığmayan cinayət əməlini ört-basdır etməyə çalışdılar. Çünki bu facia birbaşa onların əli ilə törədilmişdi. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuş və Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilmişdir. Yeni əsrin başlanğıcında xalqa müraciətində Prezident Heydər Əliyev demişdir: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".

Bütün bunların fonunda 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının 23-cü fövqəladə qurultayında Azərbaycan Kommunist Partiyası ləğv olundu, oktyabrın 18-də isə "Müstəqillik haqqında" Konstitusiya Aktı qəbul edildi. Həmin il dekabrın 29-da keçirilən ümumxalq referendumunda əhalinin 95 faizi iştirak edərək müstəqillik, suverenlik yolunu seçdi, beləliklə müstəqillik haqqında Konstitusiya Aktı qüvvəyə mindi. Lakin 1991-1992-ci illərdə ölkəmizin müstəqilliyi formal xarakter daşıyırdı, respublikada sovet rejimini qoruyub saxlamağa çalışanlar hər vəchlə Azərbaycanın SSRİ-nin tərkibində qalmasına cəhd göstərirdilər. Bu səbəbdən də müstəqil dövlətin daxili və xarici siyasət konsepsiyasının hazırlanıb həyata keçirilməsi istiqamətində heç bir addım atılmırdı. 2000-ci ildə yeni əsrin başlanması münasibətilə xalqa müraciətində Prezident Heydər Əliyev bildirmişdir ki, həmin dövrdə hakimiyyət strukturunda tez-tez baş verən dəyişikliklər, vəzifə uğrunda silahlı mübarizələr dövlətçiliyin əsaslarını sarsıtmış, müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdır. Bütün bunları fürsət bilən mənfur qüvvələr 1991-1992-ci illər ərzində Qarabağda vəziyyəti günü-gündən gərginləşdirir, ərazilərimizin işğalının miqyası genişləndirilirdi. AXC-Müsavat cütlüyü ölkəni uçuruma sürükləyirdi.

1993-cü ilin iyunundan etibarən müstəqil dövlətçilik tariximizin ikinci dövrü başladı. Dahi şəxsiyyət, dövlətçiliyimizin xilaskarı, tarixin ən çətin sınaqlarında bütün maneələri dəf edərək xalqının xilaskarına çevrilən ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın təşəkkülündə, müstəqilliyimizin qorunub saxlanmasında ölçüyəgəlməz xidmətləri, əvəzolunmaz əməyi olmuşdur. Müasir Azərbaycanın banisi düşünülmüş, uzaqgörən siyasəti ilə xalqımızı böyük fəlakətlərdən, daxili və xarici anti-Azərbaycan qüvvələrin bədxah əməllərindən, vətəndaş müharibəsindən, torpaqlarımızın bir-birinin ardınca işğalından, müstəqil dövlətçiliyimizin itirilməsi təhlükəsindən xilas etmişdir.

Ötən əsrdə xalqımız çətin, ziddiyyətli, mürəkkəb proseslərdən keçsə də, əsrin sonunda isiqlalını əldə etdi. Bu tarixi hadisəni qürurla qeyd edən ümummilli lider yeni minillikdə dövlət müstəqilliyinin möhkəmləndirilməsi, respublikanın ərazi bütövlüyünün bərpası, Qarabağ probleminin milli maraqlara uyğun həll olunması, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələri qarşıya qoymuş, torpaqlarımızın işğaldan azad olunacağına, bütün çətinliklərə mətanətlə sinə gərən məcburi köçkünlərin doğma yurdlarına dönəcəklərinə, xalqımızın sülh və firavanlıq içində yaşayacağına əminliyini bildirmişdi.

Ulu öndər, dahi lider, müdrik siyasətçi Heydər Əliyevin arzuları reallaşdı. Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Demokratik, müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Regionda yeni reallıqlar yaradan, sülhə, tolerantlığa, mədəniyyətlərarası və dialoqlararası anlaşmaya böyük töhfələr verən Cənubi Qafqazın lider dövləti, dünyanın nüfuzlu ölkəsi olan müasir müstəqil Azərbaycan haqq, ədalət yolu ilə minilliklərə doğru böyük addımlarla irəliləyir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**